


*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

Qəzet 1921-ci ildən çıxır

# ŞƏRQ qapısı

Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 240 (20.894)

*21 dekabr 2013-cü il, şənbə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## *Rəsmi xronika*



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ölkəmizin şimal regionuna səfəri çərçivəsində dekabrın 20-də Qubada “Rixos Quba Azerbaijan” otel kompleksinin açılışında iştirak etmişdir.

Dövlətimizin başçısı otelin rəmzi açılışını bildirən lenti kəsdi.

Məlumat verildi ki, “Rixos Quba Azerbaijan” oteli Qudyalçayın sahilində inşa olunmuşdur. Yüksək keyfiyyətli müxtəlif xidmətlərin göstəriləcəyi otel kompleksi maraqlı memarlıq üslubunda tikilmişdir. Avanqard və modern memarlıq üslublarının sintezi əsasında inşa edilən binanın interyerinin tərtibatında xaricdə hazırlanan mebel və aksessuarlardan istifadə olunmuşdur. Turistlərin Heydər Əliyev Beynəlxalq Aeroportundan “Rixos Quba Azerbaijan” otelinə çatdırılması üçün özəl VİP servis və helikopter xidməti göstəriləcəkdir.

Prezident İlham Əliyev komplekslə tanış oldu.

Komplekslə tanışlıqdan sonra dövlətimizin başçısı otelin kollektivi ilə görüşdü.

Sonda xatirə şəkli çəkdirildi.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 19-20-də “Şahdağ” qış-yay turizm kompleksində tikilmiş yeni otellərin açılışında iştirak etmiş, yaradılmış yüksək xidmət şəraiti ilə tanış olmuşdur.

Ölkəmizdə ilk dəfə yaradılan və dünya standartlarına cavab verən bu layihənin reallaşdırılması respublikada dağ-xizək və digər qış idman növlərinin, xüsusilə də turizmin inkişafı üçün geniş imkanlar açır.

## Heydər Əliyev Muzeyində növbəti açıq dərs keçilmişdir

***Dünən Naxçıvan şəhərindəki Heydər Əliyev Muzeyində açıq dərs keçilmişdir. Açıq dərsdə 13 nömrəli tam orta məktəbin şagirdləri iştirak etmişlər.***



Açıq dərsdə məktəbin tarix müəllimi Təhminə İbrahimova ulu öndər Heydər Əliyevin uzaqgörən siyasətinin bəhrəsi olan 31 Dekabr – Dünya Azərbaycanlılarının Həmrəylik Gününün təsis olunmasından və dünyanın müxtəlif ölkələrində yaşayan azərbaycanlıların bir araya gəlməsində dahi şəxsiyyətin həyata keçirdiyi tədbirlərdən danışmışdır. Bildirilmişdir ki, dünya azərbaycanlılarının müstəqil dövlətimiz və vahid məqsəd ətrafında birləşdirilməsi ideyası XX əsrin sonlarına doğru Azərbaycan tarixinin və dövlətçiliyinin şərəfli səhifələrini yaradan ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. Ötən əsrin 90-cı illərinin əvvəllərində Naxçıvandan başlanan Heydər Əliyev xilaskarlıq missiyasının əsas qayəsini xalqımızın vahid ideologiya ətrafında birləşməsi təşkil edirdi. 1991-ci il dekabrın 16-da ümummilli liderimizin rəhbərliyi ilə keçirilən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sessiyasında “31 Dekabr – Dünya Azərbaycan türklərinin Həmrəylik və Birlik Günü haqqında” Qərar qəbul olunmuşdur. Həmin sessiyadakı çıxışında ümummilli liderimiz qərarın tarixi-siyasi əhəmiyyətini qeyd edərək demişdir: ***“Dünya Azərbaycan türklərinin Milli Həmrəylik və Birlik Günü haqqında məsələnin Naxçıvan Muxtar Respublikası Ali Məclisi sessiyasında müzakirə olunması, böyük siyasi əhəmiyyətli qərar qəbul edilməsi Azərbaycan türklərinin uzun illər ayrılığından sonra birləşməsi yolunda ilk addımdır. Biz böyük qürur hissi ilə qeyd edə bilərik ki, bu, məhz Naxçıvanda, qədim türk diyarında irəli sürülmüşdür”***. Qərara əsasən, 1991-ci ilin son günü – 31 dekabrda həmrəylik bayramı ilk dəfə muxtar respublikada kütləvi tədbirlərlə qeyd edilmişdir. Dünya azərbaycanlılarının birlik və həmrəyliyi istiqamətində atılmış ilk addım olan bu bayram sonrakı dövrlərdə bu sahədə həyata keçirilən tədbirlərin daha da kütləvi xarakter almasında, xalqımızın vahid ideologiya ətrafında birləşməsində mühüm rol oynamışdır.

Görkəmli dövlət xadimi Heydər Əliyev 1993-cü ildə xalqın təkidli tələbi ilə ölkəmizdə yenidən siyasi hakimiyyətə qayıtdıqdan sonra bütün sahələrdə olduğu kimi, milli birliyə nail olunması istiqamətində də ardıcıl tədbirlər həyata keçirilmiş, Azərbaycançılıq anlayışı milli ideologiyaya çevrilmiş, xaricdə yaşayan həmvətənlərimizin Azərbaycanla əlaqələri genişləndirilmiş, milli diaspor təşkilatlarının yaradılmasına başlanılmışdır.

Qeyd olunmuşdur ki, Azərbaycana rəhbərliyi dövründə ümummilli liderimizin uzaqgörən siyasəti nəticəsində bu istiqamətdə mühüm tədbirlər reallaşdırılmışdır. Ulu öndərimizin təşəbbüsü ilə 2001-ci il noyabrın 9-u və 10-da Bakıda Dünya Azərbaycanlılarının I Qurultayının keçirilməsi milli həmrəyliyin əldə edilməsində ən vacib şərt olan diaspor quruculuğu sahəsində həlledici mərhələnin başlanğıcı kimi tariximizə yazılmışdır. Bu ənənə davam etdirilmiş, indiyə qədər dünya azərbaycanlılarının 2006-cı və 2011-ci illərdə II və III qurultayları keçirilmişdir.

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin milli birlik, həmrəylik və Azərbaycançılıq ideyaları bu gün dövlət başçısı cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Azərbaycan Prezidentinin bu sahədə həyata keçirdiyi tədbirlər, soydaşlarımızın vahid ideologiya ətrafında birləşməsi yolunda gördüyü işlər, qəbul etdiyi tarixi qərarlar dünyanın müxtəlif ölkələrində yaşayan azərbaycanlılarda milli ruhun yüksəldilməsinə, onların doğma Vətənə bağlılıqlarının artırılmasına səbəb olmuşdur.

Ümumxalq, ümummilli bayram olan, Vətən eşqi, milli və mənəvi birlik hissləri aşılayan 31 Dekabr – Dünya Azərbaycanlılarının Həmrəylik Günü hər il xalqımız tərəfindən böyük ruh yüksəkliyi, sabaha olan xoş ümidlərlə qeyd olunur.

Sonra şagirdlər muzeyin ekspozisiyası ilə tanış olmuşlar.

## Müstəqil Azərbaycanın memarı

Naxçıvan şəhərindəki 17 nömrəli tam orta məktəbdə “Heydər Əliyev ili” ilə əlaqədar tədbir keçirilmişdir. Tədbiri giriş sözü ilə məktəbin direktoru Aynur Mustafayeva açaraq bildirmişdir ki, xalqımız bugünkü firavanlığına, əminamanlığına, ictimai-siyasi sabitliyə, Azərbaycanın regionda lider dövlətə çevrilməsinə görə ümummilli liderimizə borcludur. Bu gün Azərbaycanda əldə olunan nailiyyətlərin bir səbəbi var – o da təməli 1969-cu ildə qoyulmuş inkişafın Heydər Əliyev modeli, Heydər Əliyev quruculuq xəttidir. Ulu öndər Heydər Əliyevin özündən sonra qalan ən qiymətli yadigarı müstəqil Azərbaycan Respublikasıdır. ***“Azərbaycanlı kimi dünyaya gəldiyimə, Azərbaycan dilində danışdığıma, Azərbaycanı təmsil etdiyimə görə özümü çox xoşbəxt sayıram”*** sözlərini fəxrlə səsləndirən dahi şəxsiyyət Heydər Əliyev idarəçilik ensiklopediyasının hər vərəqi, hər sətri xalqa və dövlətə xidmətin təzahürüdür. Ümummilli liderimizin ideyalarının tükənməzliyi və yaradıcı gücü xalqımızın nurlu gələcəyi üçün sönməz məşəldir. 1993-cü ildə dahi şəxsiyyət Heydər Əliyevin yenidən siyasi hakimiyyətə qayıdışı, ilk növbədə, Azərbaycanın varlığını və müstəqilliyini, dövlətçiliyini qoruyub saxladı, ölkəni parçalanmaqdan, xalqımızı böyük fəlakətdən hifz etdi. Bu qayıdış Azərbaycanın müstəqilliyini dünya miqyasında reallığa çevirdi. Görkəmli dövlət xadimi Heydər Əliyevin yorulmaz fəaliyyəti sayəsində ölkədə ictimai-siyasi sabitlik bərqərar oldu, iqtisadi islahatlar həyata keçirildi. Ulu öndərimizin ölkəmizə rəhbərlik etdiyi illərin tariximizə milli intibah, milli tərəqqi, milli oyanış və müstəqil dövlət quruculuğu dövrü kimi daxil olduğunu bildirən Aynur Mustafayeva demişdir ki, xalqımızın böyük oğlunun ideyaları, amalları bu gün də Azərbaycanın yoluna işıq saçır, xalqımızı xoşbəxt gələcəyə aparır. Dünya dövlətləri sırasında layiqli yerini tutan Azərbaycanın ulu öndərimiz tərəfindən müəyyənləşdirilən inkişaf xəttini hazırda ölkə başçısı cənab İlham Əliyev uğurla davam etdirir.

Bu gün xalqımız əmindir ki, ümummilli liderimizin siyasi kursu etibarlı əllərdədir. Bu kursu davam etdirən ölkə rəhbəri cənab İlham Əliyev nəinki regionda, bütövlükdə, dünyada qəbul edilmiş siyasətçi kimi Azərbaycanı, onunla birlikdə Heydər Əliyev kursunu da yaşadır, ölkəmizi inamla daha xoşbəxt gələcəyə aparır, böyük uğurlara imza atır.

Sonra məktəbin müəllimlərindən Selcan Quliyeva, Şəlalə Abbasova və başqaları çıxış edərək bildirmişlər ki, bu gün görkəmli dövlət xadimi Heydər Əliyevin işi və əməlləri onun şah əsəri olan müstəqil, qüdrətli Azərbaycanın hər yerində görünür. Heydər Əliyev yolu ilə gedərək gündən-günə inkişafa və tərəqqiyə qovuşan Azərbaycanda və onun Naxçıvan Muxtar Respublikasında əldə olunan bütün nailiyyətlərdə ümummilli liderimizin fəal yaradıcı gücə malik olan idealları yaşayır. Naxçıvan Muxtar Respublikasında Heydər Əliyev quruculuq xəttinin uğurla davam etdirilməsi nəticəsində muxtar respublikamız inkişafının keyfiyyətcə yeni mərhələsinə qədəm qoymuşdur. Muxtar respublikada həyata keçirilən iqtisadi islahatlar qısa tarixi dövr ərzində makroiqtisadi sabitliyin bərqərar olunmasını təmin etmiş, iqtisadiyyatın dinamik inkişafına təkan vermiş və əhalinin həyat səviyyəsini əhəmiyyətli dərəcədə yaxşılaşdırmışdır.

Tədbirin sonunda məktəblilər ümummilli liderimiz Heydər Əliyevə həsr olunmuş şeirləri bədii qiraət etmişlər.

## Tikinti-quruculuq tədbirləri ucqar dağ kəndlərini müasir yaşayış məntəqəsinə çevirib

Muxtar respublikanın digər bölgələri kimi, Culfa rayonunda da hər il hərtərəfli dövlət qayğısının bariz ifadəsi kimi dəyərləndirilən müxtəliftəyinatlı obyektlər istifadəyə verilir. Bu ünvanlarda müasir iş şəraiti yaradılır. Yaxşı hal həm də ondan ibarətdir ki, quruculuq tədbirləri mərkəzdən uzaq, ucqar dağ və sərhəd kəndlərində daha çox diqqəti çəkir. Bu cəhətdən cari il də istisna deyil. Mart ayından yeni sosial obyektlərin inşasına və mövcud obyektlərin yenidən qurulmasına başlanılan rayonun Kırna, Teyvaz, Əlincə, Ərəfsə, Şurud kəndlərində onların bir neçəsi artıq təhvil verilib.

Bu sırada ilk olaraq Kırna kəndinin avtomobil yolunun yenidən qurulmasını qeyd etmək yerinə düşər. Yolun uzunluğu 4 kilometr, yol yatağının eni 9, asfalt örtüklü ikizolaqlı hərəkət hissəsinin eni isə 7,2 metrdir. Yenidən qurulan yol piyadaların və avtomobillərin təhlükəsiz hərəkətini təmin edib. Quruculuq işləri aparılarkən yola suötürücülər qoyulub. Müasir tələblər səviyyəsində qurulan yol rayon mərkəzi və digər kəndlərlə nəqliyyat əlaqəsinin yaxşılaşdırılmasına imkan verib.

Kənd məktəbində təhsilin səviyyəsinin yüksəldilməsi diqqətdə saxlanılaraq mövcud məktəb binası da yenidən qurulub. 306 şagird yerlik bina zirzəmi ilə birlikdə 4 mərtəbədən ibarətdir. Binada 17 sinif otağı, kimya, biologiya və fizika laboratoriyaları, hərbi kabinə, 2 kompüter otağı, müəllimlər otağı, kitabxana, bufet və idman zalı var.

Kırna kəndində istifadəyə verilən kənd mərkəzində müasir iş şəraiti yaradılıb. Binada rabitə evi, polis sahə və baytarlıq məntəqələri, eləcə də kitabxana, Yeni Azərbaycan Partiyası ərazi ilk təşkilatı, inzibati ərazi dairəsi üzrə nümayəndəlik, bələdiyyə, kənd mədəniyyət evi, arxiv və 55 yerlik iclas zalı yerləşir.

Yeni tikintilər sırasında həkim ambulatoriyası və xidmət mərkəzi də vardır.

Tikinti-quruculuq tədbirlərindən Teyvaz kəndi də bəhrələnib. Kənddə 110 şagird yerlik ikimərtəbəli məktəb binası inşa olunub. Yeni məktəb binası yüksək təhsil göstəriciləri qazanmağa imkan verib. Digər bir qayğı isə müasir layihə əsasında inşa edilən kənd mərkəzidir. Mərkəzdə Teyvazda fəaliyyət göstərən dövlət qurumları yerləşir. Burada həm də 4 otaqdan ibarət olan tibb məntəqəsi üçün lazımi şərait yaradılıb.

Culfa şəhərindəki 16 nömrəli beşmərtəbəli yaşayış binasının, Şurud kəndində 110 şagird yerlik, Ərəfsə kəndində 306 şagird yerlik məktəb binalarının əsaslı təmiri başa çatdırılıb. Əlincə kəndində xidmət və kənd mərkəzlərinin inşası, məktəb binasının təmiri, Culfa şəhərinin girəcəyində Dövlət Bayrağı Meydanı Kompleksinin tikintisi də yekunlaşdırılmaqdadır.

**Xəbərlər şöbəsi**



Şahbulaq kənd tam orta məktəbi

***Builki yazılarımda oxuculara Culfanın Şurud, Şahbuzun Ağbulaq, Keçili, Sədərəyin Qaraağac kəndləri barədə az-çox məlumat vermişəm, ilin axırındakı səfərim Şərur rayonunun Şahbulaq kəndinə oldu və oxucuya bir məramımı da çatdırım ki, bu kəndlər ən ucqar və həm də aztanınan kəndlərdir.***

*Jurnalistin qeydləri*

# Şahbulaqla görüş

Şahbulaqlılar kəndə gedən yolu “uzun dərə” adlandırırlar və mən də bu yolun dolaylarını keçə-keçə zümzümə edirdim: “Bir gedəydim bu dərələr uzunu, Oxuyaydım, çoban, qaytar, quzunu”. Amma hələlik, buralarda qoyun-quzu gözə dəymirdi, hər iki tərəf yalçın qayalar, zirvəsi buludlardan nəm çəkən dağlar, arabir görünüb-itən dağ keçiləri və bir də dərə ilə üzüaşağı axan Şahbulağın gözyaşı kimi dumduru suyu. Bunlar ana təbiətin yaratdıqlarının mində biri idi ki, gözümə dəyirdi, bəs insan buralarda nə yaradıb, əlbəttə ki, mən dövləti nəzərdə tuturam. Bir qədər irəli gedərək kənd ağsaqqalları ilə söhbət zamanı yadımda qalan ifadələri də vərəqə köçürürəm. “Gümüşlüdən bura toz-torpağın içində atnan, ulağınan iki-üç saata gələrdik, indi isə 6-7 dəqiqəlik yoldur”. Bu ilin axırında Şahbulağa bir yol çəkiblər ki, necə deyərlər, əl içi kimi. Dərə boyu yeddi kilometrdən çox uzunluğu olan qapqara asfalt yolun hər iki tərəfi xətlənib, işarələr qoyulub.

Bu barədə bir qədər sonra, yəni Şahbulaqda aparılan abadlıq, quruculuq tədbirləri haqqında oxuculara ətraflı məlumat verəcəyəm. Amma əvvəlcə Şahbulaq haradır, yeri-yurdu necədir, əhalisi kimdir, nə qədərdir, camaatının məşğuliyyəti nədən ibarətdir, necə dolanırlar, necə gün-güzəran sürürlər kimi suallara aydınlıq gətirməkdən başlayaq. Şahbulaq Şərur rayonunun ən ucqar dağ kəndlərindəndir. Rayon mərkəzindən 28 kilometr aralıdadır. Dəniz səviyyəsindən 1500-1600 metr hündürlükdədir və ona görə də əməkhaqlarına, təqaüdlərinə, xülasə, bütün gəlirlərinə 20 faiz yüksəklik pulu verilir. Şahbulağın 60 evi var, təsərrüfatı 139-dur, əhalisi 577 nəfərdir. 1994-cü ildə burada torpaq islahatı başa çatdırılıb və hər nəfərə 750 kvadratmetr torpaq sahəsi düşüb. Amma bu torpaq bölgüsü məsələsində şahbulaqlıların kiçik bir çətinliyi olub. Bu da ondan ibarətdir ki, kənd camaatının torpağı o biri kəndlərinki kimi, necə deyərlər, başlarının üstündə deyil, xeyli aralıdadır. Məsələ ondadır ki, sovetlər dönəmində Şahbulaq o vaxtkı Səməd Vurğun adına sovxozun tərkibində idi və ona görə də torpaq bölgüsündə onlara düşən payın çoxu Həmzəli kəndinin ərazisindədir – 8-10 kilometr aralıda. O var ki, şahbulaqlılar bunu özləri üçün problem hesab etmirlər, təki torpaq olsun, əkib-biçmək, becərmək üçün belə məsafə heç nədir.

Bir əsas məqamı da oxucunun nəzərinə çatdırım ki, Şahbulaq mənfur düşmənlə üz-üzə dayanan kəndlərimizdəndir, amma o var ki, heç bir şahbulaqlı burada özünü narahat hiss etmir. Azərbaycan Ordusunun əsgərləri kənd adamının, onların təsərrüfatlarının keşiyindədir və ona görə də kənddə həyat öz qaydası ilə davam etməkdədir.

Xülasə, yolumuz Şahbulağadır. Ağsal dağı arxada qalır, Dəyirman qalasının yanından ötürük, qış Günəşinin sarımtıl şüaları Qızıl qayanın qızılı rəngini daha da artırır, bu yerləri qızıla bələnd eləyir. Şahbulaqdayıq. Şahbulaq və Gümüşlü kəndləri eyni inzibati ərazi dairəsi üzrə nümayəndəliyə daxil olan kəndlərdir.



Şahbulaq Kənd Mərkəzi



Şahbulaq kəndində xidmət mərkəzi

Şahbulaq səfərimdə mənə hər iki kəndin icra nümayəndəsi Rafiq Məmmədov və müavini Şahbaz Cəfərov yoldaşlıq elədilər. Onlar ara vermədən kənd haqqında məlumat verirdilər və dediklərindən belə məlum olurdu ki, 60 evlik Şahbulağın 150 baş inəyi (yəni gözəyarı hesablayanda hər qapıdan orta hesabla 2-3 baş inək çıxır), 400 başdan çox qoyun-quzusu, 350 arı ailəsi var. Toyuq-cücənin sayını bilmədilər. Şahbulaqlılar istiqanlı, qonaqpərvər insanlardır, ürəyin istəyən qapını, darvazanı aç, səni gülərüzlə qarşılayacaqlar. “Qonaq Allah qonağıdır” deyəcəklər və onların inancına görə, qonağın ruzisini də Ulu Tanrı özü ilə birlikdə göndərir.

Kəndin girəcəyində yamaclı bir həyət var, bura Əşrəf Bağırovun həyətidir. Həyətdə ikimərtəbəli ev, toy elə, yüz nəfər də qonaq çağır, hamısı yerləşəcək. Əlbəttə, qış zamanıdır, o boyda ev-eşiyi qızdırmaq nəyə lazım və ona görə də binanın birinci mərtəbəsində yaşayırlar. Qaz sobası, necə deyərlər, gurhagurla yanır, yerə döşənən xalı-xalçalar istiliyi bir az da artırır, içəridə xoş, məlhəm bir ab-hava yaradır. Vallah, adamın dağ kəndindəki bu yaşam tərzinə tamahı düşür, şəhər həyatının səs-küyü, səndən yuxarıdakı mərtəbədə yaşayanların tappıltısı, guppultusu hara, bu sakitlik hara? Kim burda ən azından ağız şirinliyi ilə yüz il yaşamasa, təqsir onun özündədir.

Sanki düşüncələrimi ev sahibi də tutur. Əşrəf kişi söhbətə pilləkən qoyur: – Atam 115 il yaşadı, dava-dərmansız, iynəsiz-filansız. Nəyə görə? Bu dağların havasına, suyuna, nemətlərinə görə.

Tərif üçün demirəm, 64 yaşım var, hələ indiyə kimi iynə vurdurmamışam. O gün irəli dişim ağrıyırdı, həkimə getdim, birinci dəfə idi ki, diş çəkdirirdim. Həkim dedi ki, qoy keyidici iynə vurum, dedim, lazım deyil, iynəsiz çək.

Dedim ki, şahbulaqlılar olduqca qonaqpərvərdirlər. Ümumiyyətlə, dağ kəndlərimizin camaatının hamısı qonaqsevərdir, əlbəttə ki, aran kəndlərimizin sakinləri mənim bu sözlərimdən inciməzlər. Nədən ki, dağ kəndlərinə qonaq ayanda-sayanda bir düşür, belə vaxt isə ev sahibi üçün toy-bayrama dönür. Evə qonaq gəlib deyə, göz açıb-yumunca çay süfrəsi açılır, yaxındakı qohum-qonşular da gəlir, hər kəs bir işin qulpundan yapışır. Şahbulaqda yad adam, gəlmə adam yoxdur, hamısı bir-birlərinə qohum-qardaşdır. Yox, bir nəfər var, bu barədə sonra deyəcəyəm, amma hələlik, Əşrəf kişinin söhbətinə qulaq asaq:

– Ulu babamız bu dağların arasında ilk daşı daş üstünə qoyandan bu yana, bəlkə də, neçə yüz il keçir, həmin kişinin də üç övladı olur, sonra artıb törəyirlər və ona görə şahbulaqlılara üç qardaşın övladları deyirlər. Yəqin ki, üç qardaş yaxın kəndlərdən özlərinə həyat yoldaşı da seçib-bəyənib gətiriblər. Xülasə, biz həmin o üç qardaşın törəmələriyik.

Əlbəttə, bunlar Əşrəf kişinin öz mülahizələridir və demək istəyir ki, Şahbulaqda yad adam yoxdur. Bütün bunları qoyuram bir qırağa, Əşrəf kişidən dolanışığını, gün-güzəranını xəbər alıram. “Necə dolanırsan?” – deyə soruşuram. “Əla”, – deyə cavab verir. Dediklərini tələm-tələsik olduğu kimi qeyd dəftərçəmə köçürməyə çalışıram.

– Gərək işləyəsən, çalışasan, zəhmət çəkəsən. Evdə üç nəfərik: evin ağbirçəyi, mən, bir də sonbeşiyimiz; onu da bu gün-sabah evləndirib ona ayrıca koma quracağam. Ondan sonra heç olmasa, bir yüz il ömür sürəcəyəm nəvə-nəticə, kötücə ilə bir yerdə. O ki qaldı soruşursan, nə təhər dolanıram, mən deyim, sən hesabla. Bax stolun üstündəki bütün meyvələr öz həyətimdəndir. – Əşrəf kişi böyük masaya darlıq edən cəvizi, almanı, armudu, narı, ərik qurusunu, daha nələri-nələri göstərir, sonra əlavə edir:

– Beş baş inəyim var. 50 qoyun-keçim, 10 arı ailəm, toyuq-cücəni bizdə saymazlar. Dükan-bazardan alsam-alsam qənd-çay alaram, vəssalam.

Əşrəf kişinin yanında oturan Həsən Ələkbərov nisbətən cavandır. Dağ kəndində ağsaqqal, ağbirçək yanında özünü gözə soxmaq yasaq sayılır, ədəb-ərkana sığmır. Ona görə də kəndin icra nümayəndəsi, müavini onun əvəzindən məlumat verirlər, – işlək, zəhmətkeş adamdır, – deyirlər. Özünə ürəyi istəyincə təsərrüfat qurub, qoyunçuluqla məşğul olur. Göz dəyməsin, qapısından sürü çıxır.

Yazımın bu yerində bir qədər geri qayıdıram, dedim axı, Şahbulaqda hamı qohum-qardaşdır, tək bir nəfərdən savayı. Əslində, o da şahbulaqlıların qohum-qardaş ailəsinin bir üzvü olub. Söz var, deyərlər, su girdi qaba, oldu içməli. Şərurun Mehrab-Muğancıq kəndindən olan Əli müəllimi, cavan oğlanı Şahbulaq məktəbinə müəllim göndəriblər və o da burada universitetin qiyabi şöbəsinin ikinci kurs tələbəsi Səkinə xanımı görüb, bəyənib, el adətincə toy edib, ailə qurub. Sağlıq olsun, yazın gözü açılan kimi özlərinə ev-eşik salacaqlar. Beləliklə, Şahbulaqda daha bir ailə çırağı yanacaq. Onu da deyim ki, Əli müəllimin qayınatası elə mənimlə üzbəsurət oturan, ədəb-ərkanlı insan Həsən Ələkbərovdur.

Çay süfrəsini səliqə-sahmana salan Məlahət Qafarova da kənd haqqında, camaat haqqında ürəkdolusu danışır. Nədən ki, haqqı çatır, həm Gümüşlüdə Yeni Azərbaycan Partiyası ərazi ilk təşkilatının sədridir, həm də hər iki kəndin – Gümüşlünün və Şahbulağın bələdiyyə başçısıdır.

– Şahbulaqda insanlar qapılarına açar-kilid vurmazlar. Həyətə baxın, heç divar, hasar, barı da yoxdur. Kimdir öz qohum-qardaşının həyət-bağçasına, malına-mülkünə kəm baxan. Qoy kiçik bir əhvalat danışım. Günlərin birində kiminsə qoyunu azıb gəlir qonşu həyətə. Həyət sahibi də qapı-qapı düşüb qoyun sahibini axtarır və heç kim demir ki, mənimdir. Beləliklə, ev sahibi düz üç ay qoyunu saxlayır ki, bəlkə, kimsə gəlib malını aparacaq. Bax əsl halallıq belə olar və ona görə də ürəkdən deyirəm ki, bu tərəfin adamları halal adamlardır, heç kimin kiminsə malında gözü yoxdur.



Gümüşlü-Şahbulaq avtomobil yolu

Kəndin ortasında bir-birinə söykənən və müasir üslubda tikilmiş binalar diqqəti o dəqiqə cəlb edir. Yazımın əvvəlində ana təbiətin Şahbulağa bağışladığı gözəlliklərin çox kiçik bir qismini oxucuya sadaladım və söz verdim ki, dövlətin də bu el-obaya göstərdiyi köməklik, diqqət və qayğı haqqında məlumat verim. Şahbulağın axarlı-baxarlı yerində bir imarət tikilib – bura kənd məktəbidir. Məktəbin direktoru Salman Cəfərovla söhbət adama ləzzət verir. Nədən ki, əsl ziyalıdır. Elə hey həmkəndlilərinin dərsə, məktəbə, təhsilə olan həvəsindən söz açır:

– Bu balaca kənddən 30 nəfərdən çox alitəhsilli mütəxəssis Bakıda, Naxçıvanda, Şərur şəhərində işləyir. Ötən dərs ilində kənd məktəbini dörd şagird bitirdi, dördü də təhsilini davam etdirir: üçü ali məktəbdə, biri texnikumda. Məktəbin 16 nəfər müəllimi var, demək olar ki, hamısı şahbulaqlıdır.

Salman müəllim təkcə təzə tikilən məktəbdən, burada uşaqlar və müəllimlər üçün yaradılan şəraitdən danışmır, ümumiyyətlə, bura göstərilən dövlət qayğısından ürəkdolusu söhbət açır:

– Kənd mərkəzinin tikilməsinin əhəmiyyətini hamı yaxşı bilir. Hər şey insanların rahatlığı üçündür, amma ucqar, həm də sərhəd kəndində bunun başqa bir önəmi var. Sakinlər görürlər və öz həyatlarında hiss edirlər ki, dövlət onları unutmayıb, yaddan çıxarmayıb, dövlətin əli həmişə onların çiynindədir. Bu hiss onları kəndlərinə, doğma ocaqlarına daha möhkəm, daha ürəkdən bağlayır. Şahbulaqda bağlı qapı yoxdur, hava qaralanda bütün evlərdə, həyətlərdə işıq yanır. Bu, o deməkdir ki, şahbulaqlı Şahbulaqdadır. Belə yeri-yurdu kim qoyub addımını kənara atar? Bulaq suyu, dağ havası, təbiətin bütün gözəllikləri burda cəm olub.

– Dağdan uzanıb gələn o dəmir borunu görürsünüzmü, – deyə barmağını qənşərdəki dağa tərəf tuşlayır: – Muxtar respublika rəhbərinin göstərişi ilə dağın o tayındakı bulaq kəndə çəkildi, hamının həyətinə, evinə içməli su verildi, başqa bir səmtdən də su çəkildi. Nə başını ağrıdım, Şahbulağın elə özünəlayiq də bulaq suyu var: özü də hər evdə. Camaatımızın uzunömürlülüyü də elə bu suya, bu havaya bağlıdı. Mənim nənəm düz 110 il yaşadı, ta bundan artıq nə istəyirsən?

Bu ilin sonunda kənddə xeyli abadlıq, quruculuq tədbirləri həyata keçirilib. Məsələn, nə? Birinci kənd və xidmət mərkəzləri tikilib. Kənd mərkəzində inzibati ərazi dairəsi üzrə nümayəndəlik, klub, kitabxana, rabitə evi, baytar otağı, polis və feldşer-mama məntəqələri var – bir sözlə, kənd camaatına nə xidmət lazımdırsa. Ticarət obyekti istifadəyə verilib, hələ bunlar harasıdır ki? Üç min metr uzunluğunda elektrik və qaz xətləri, 150 metr uzunluğunda hasar çəkilib, 20 su keçidi qaydaya salınıb, telefon xidmətini daha da yaxşılaşdırmaq məqsədilə yeni ATS quraşdırılıb, 10 ədəd rabitə dirəyi salınıb, 500 metr uzunluğunda yeraltı kabel çəkilib, sürətli internet üçün yeni avadanlıq quraşdırılıb, xeyli abadlıq işləri aparılıb, 500 ədəd meyvə ağacı, 360 ədəd gül kolu, 90 ədəd dekorativ ting əkilib, əkinlərin suvarılması üçün plastik borularla su xətti çəkilib. Xidmət mərkəzində ərzaq mağazası, ət satışı yeri, bərbərxana, qadın gözəllik salonu var. Burada 4 nəfər üçün iş yeri açılıb. Bunlar adi dağ kəndlərimizdən birinə Azərbaycan dövlətinin göstərdiyi növbəti qayğıdır və belə kəndlərimiz isə nə qədərdir.

**Bəli, hörmətli oxucu! 2013-cü ildə sizi az-çox tanış eləməyə çalışdığım növbəti kəndlərdən daha birindən ayrılıram – Şahbulaqdan. Şahbulaqlılar Şahbulağın suyundan istifadə etmirlər, daha doğrusu, istifadə edə bilmirlər, nədən ki, bulaq kəndin lap ayağında üzə çıxır və üzüaşağı da uzun dərə boyu axdıqca axır. Amma şahbulaqlılar bundan bir zərrə də narahat olub-eləmirlər, nədən ki, səxavətli, əliaçıq insanlardır, var-dövlətlərini belə, kimsədən müraiqə eləməzlər, olsun ki, bulaq suyunu. Şahbulaq üzüaşağı axır, yan-yörəsinə bulaqotu, lilpar, nilufər, beliar ətri, bahar nəfəsi yaya-yaya. Şahbulaq üzüaşağı axır, yayın cızdamasında yolçuya bir içim su vermək üçün, sürüsünü su üstünə haylayıb-haraylayan çoban üçün, yalçın qayaların lap zirvəsindən daşdan-daşa adlayıb susuzluğunu söndürəcək bir dağ keçisi üçün, bir böcək üçün, bir kəpənək üçün... Şahbulağın suyundan bir şüşə də mən özümlə götürürəm. Nə üçün? Məgər Naxçıvanda su qəhətdir? Bu Şahbulaq suyunun üzümüzə gələn Yeni il axşamında bayram süfrəmə qoymaq üçün. Ondan ötrü ki, növbəti ildə – 2014-cü ildə süfrəm daha təmiz, daha saf, daha xeyir-bərəkətli olsun. Həm də təkcə bir şüşə sumu? Şahbulaqdan şahbulaqlıların səxavətini, qonaqpərvərliyini, mehribanlığını, sədaqətini, insanlığın daha qiymətli nələri varsa, hamısını qəlbimə, ürəyimə doldurub gətirirəm. Gətirirəm ki, bu müqəddəs hissləri bütün Naxçıvanla paylayam.**

**Nurəddin BABAYEV**
*Azərbaycan Respublikasının əməkdar jurnalisti*

*Ümummilli liderimiz Heydər Əliyevin Azərbaycana rəhbərliyinin birinci dövründə ölkəmizin, o cümlədən muxtar respublikamızın qazlaşdırılması istiqamətində irimiqyaslı layihələr həyata keçirilmiş, 1978-ci ildə Yevlax-Xankəndi-Laçın-Şahbuz-Naxçıvan yüksəktəzyiqli magistral qaz boru xəttinin inşasına başlanılmış və 1980-ci ildə layihə uğurla başa çatdırılmışdır. Qaz xətti 1990-cı ilə qədər istismar olunmuş, Ermənistanın işğalçılıq siyasəti nəticəsində Naxçıvan Muxtar Respublikası blokada vəziyyətinə düşmüş, nəticədə, Naxçıvana təbii qazın verilməsi dayandırılmışdır. Ölkə başçısı cənab İlham Əliyevin qayğısı və himayəsi ilə 2005-ci ildə Naxçıvan Muxtar Respublikasına təbii qazın nəqli bərpa edilmiş, mövcud orta və yüksəktəzyiqli qaz boru xətlərindən istifadə olunmaqla əhali təbii qazla təmin olunmuşdur. Orta və yüksəktəzyiqli qaz boru xətlərinin yenilənməsi işinin isə ikinci mərhələdə həyata keçirilməsi nəzərdə tutulmuşdur.*

# Qaz təsərrüfatında yeni layihələr həyata keçirilir

"Naxçıvanqaz" İstehsalat Birliyinin direktoru Səxavət Abbasov bizimlə söhbətində qeyd etdi ki, istehlakçıların təbii qazla fasiləsiz təmin edilməsi ilə yanaşı, bu sahədə infrastrukturun təkmilləşdirilməsi məsələləri də diqqət mərkəzində saxlanılır, mövcud qaz xətlərində təmir işləri aparılır, istismar müddəti başa çatmış xətlər yeniləri ilə əvəz olunur. Uzun müddət istifadəsiz qalan Naxçıvan-Şahbuz ortatəzyiqli və Naxçıvan-Sədərək yüksəktəzyiqli qaz xətləri yararsız vəziyyətə düşmüşdü. Ümumi uzunluğu 27 kilometr olan Naxçıvan-Şahbuz ortatəzyiqli və 81,6 kilometr olan Naxçıvan-Sədərək yüksəktəzyiqli qaz boru xətlərinin layihəsi hazırlanaraq tikinti işlərinə başlanılmış və qaz xətləri müasir tələblərə uyğun şəkildə çəkilmişdir. 12 atmosfer işçi təzyiqə hesablanmış Naxçıvan-Şahbuz qaz xətti hazırda 3 atmosfer təzyiqdə istismar olunur.

Naxçıvan-Sədərək yüksəktəzyiqli magistral qaz kəməri də müasir tələblər səviyyəsində qurulmuşdur. 75 atmosfer təzyiqdə qaz xəttində 1 milyon 500 min kubmetr təbii qaz ehtiyatı yaratmaq mümkündür ki, bu da hər hansı qəza halı baş verdikdə abonentlərin 8 gün müddətində təbii qazla tam təmin olunmasına imkan verir. Naxçıvan-Sədərək qaz kəməri 8 millimetr qalınlıqda 558,8 millimetr diametrli izolyasiyalı borularla 1 metr dərinlikdən çəkilmişdir. Kəmərin çay və yol keçidlərindən keçən hissələrində lazımi mühəndis-texniki qaydalara əməl edilmiş, kəmər boyu xidməti avtomobil yolu çəkilmiş, bu qaz xətti cari ilin oktyabr ayında istifadəyə verilmişdir.

Su-kanalizasiya sistemlərinin və yol infrastrukturunun yenidən qurulması ilə əlaqədar həyata keçirilən layihələr zamanı həmin ərazilərdən qaz xətləri kənarlaşdırılmış, ayrı-ayrı rayonlarda sel və daşqın zamanı zərər dəymiş müxtəlifdiametrli qaz xətləri bərpa olunmuşdur.

"Naxçıvanqaz" İstehsalat Birliyi üzrə təbii qazın qəbulu, paylanması və təhvili prosesində qaz sərfi göstəricilərinin mərkəzləşdirilmiş nöqtədə çevik kompüter-nəzarət və qeydiyyat sisteminin tətbiqi ilə əlaqədar hazırlanmış layihənin icrasına ötən ilin sonundan başlanılmışdır. ROC-407 tipli elektron sərfölçmə cihazları üzərində uzaq məsafədən operativ nəzarət üçün ölçü qovşağında yerləşən qaz-ölçü cihazı ilə mərkəzdəki kompüter arasında əlaqə yaradan modemlərin quraşdırılmasına başlanılmış, cari ilin ötən dövründə bu istiqamətdə işlər davam etdirilmiş, ümumilikdə, 2 ədəd qəbuledici, 22 ədəd xaricedici modemlər quraşdırılmışdır.

Qeyd edək ki, muxtar respublika ərazisində hazırda istismar edilən ROC-407 tipli sərfölçən cihazlardakı məlumatlar hər hesabat ayının sonunda işçilər tərəfindən yerlərə çıxmaqla səyyar kompüterlər vasitəsilə toplanılırdı. Bunun üçün servis xidməti ayrılır, əlavə xərc çəkilir, qış aylarında isə bəzi nöqtələrdən bu məlumatların əldə edilməsində çətinliklər yaranırdı. Həmçinin cihazın yaddaşında olan aylıq, saatlıq və dəqiqəlik sərf göstəriciləri, qazın xüsusi çəkisi, borunun və daraldıcı qurğunun daxili diametri və digər göstəricilər səyyar kompüter vasitəsilə götürüldükdə bu göstəricilərin təhlili yalnız həmin məlumatların "Naxçıvanqaz" İstehsalat Birliyinin inzibati binasına çatdırılmasından sonra mümkün olurdu. Bu da hesabatların vaxtında tərtib edilməsinə çətinlik törədirdi.

Mərkəzləşdirilmiş (məsafədən) çevik kompüter-nəzarət və qeydiyyat sisteminin yaradılması ölçü qovşağında quraşdırılmış cihazın sərf göstəricilərini əlavə kabel xətləri çəkilmədən muxtar respublikamızda mövcud olan GSM şəbəkəsi əlaqəsinin köməyi ilə məsafədən götürülməsinə imkan verir. Bu isə, öz növbəsində, baş verən dəyişikliklərin vaxtında qeydə alınmasına, onların başvermə səbəblərini araşdıraraq qısa müddət ərzində lazımi tədbirlərin görülməsinə şərait yaradır. Bundan əlavə, ildə iki dəfə – payız-qış, yaz-yay mövsümlərində saatların dəyişdirilməsi prosesini mərkəzləşdirilmiş sistem vasitəsi ilə cihazlara daxil etməklə, həmin gün ərzində azalan və ya çoxalan saatların sayını da nəzərə almaqla hesabatların daha dəqiq aparılması təmin edilir.

Mərkəzdəki kompüter hər bir sərfölçən cihazdan dəqiqəlik, saatlıq, ongünlük və aylıq sərf göstəriciləri haqqında məlumatları bir saatdan bir götürür. Məlumatların bir saatdan bir götürülməsinə səbəb ROC-407 sərfölçən cihazın dəqiqəlik sərfiyyat barədə məlumatların yalnız bir saat ərzində yaddaşda saxlaya bilməsidir. "Naxçıvanqaz" İstehsalat Birliyində quraşdırılan server kompüteri mərkəzdəki kompüterdən sərf göstəriciləri haqqında məlumatları iki saatdan bir yalnız istifadəçi (baxış) rejimində götürür və "Naxçıvanqaz" İstehsalat Birliyinin müvafiq idarə və şöbələri istənilən vaxt aidiyyəti üzrə məlumatları həmin server kompüterdən götürməklə müxtəlif hesabat formalarının hazırlanmasında istifadə edirlər. Bu isə Naxçıvan Muxtar Respublikasında təbii qazın nəqli və paylanması proseslərini tam nəzarətdə saxlamaqla məlumatların vaxtında, daha dəqiq əldə edilməsinə və hesabatların düzgün aparılmasına imkan yaradır.

Muxtar respublikada təbii qazın qeydiyyatının dəqiq aparılması məqsədilə quraşdırılmış ROC-407 tipli qaz-ölçü cihazına və "Elestr" tipli qaz sayğaclarına ciddi nəzarət olunur. Avtomat qazpaylayıcı stansiyalarda istismar olunan ROC-407 tipli ölçü cihazı yoxlamadan keçirilmiş və kalibrləşdirilmişdir. Əhali abunəçilərinin normal, sabit və təhlükəsiz qaz təchizatını təmin etmək məqsədilə alınmış qaztənzimləyici şkaflar və qaztənzimləyicilər tələb olunan yerlərdə quraşdırılmışdır. Təbii qazın itkisiz olaraq yerlərə çatdırılması, israfçılığın qarşısının alınması və sərf olunan qazın dəyərinin vaxtında ödənilməsi ilə əlaqədar tədbirlər davam etdirilmiş, istismarda olan qaz sayğaclarına mütəmadi olaraq baxışlar keçirilmiş, cari təmirə ehtiyacı olan sayğaclar təmir edilmiş, təmiri mümkün olmayan 2345 ədəd sayğac isə yenisi ilə əvəzlənmişdir.

Səxavət Abbasov onu da bildirdi ki, abonentlərin təhlükəsizliyi də diqqət mərkəzində saxlanılmış, baş verə biləcək hər hansı bir qəzanın vaxtında aradan qaldırılması üçün şəhər və rayon Qaz İstismarı idarələrində qəza dispetçer xidmətlərinin 24 saat fəaliyyəti təmin edilmişdir.

Muxtar respublikamızın yaşayış məntəqələrində yeni tikilən yaşayış evlərinin vətəndaşların müraciətinə əsasən qazlaşdırılması işi də uğurla aparılmış, yeni sayğaclar quraşdırılmış və qaz təchizatı haqqında müqavilə bağlandıqdan sonra təbii qazın verilməsinə başlanılmışdır. Ümumilikdə, muxtar respublikada 82 min 606 istehlakçı təbii qazdan istifadə edir ki, onlardan 1056 abonent, 94 müəssisə cari ilin 11 ayında təbii qazla təmin olunmuşdur.

Sərf olunan qazın dəyərinin vaxtında ödənilməsi də diqqət mərkəzində saxlanılmış, 2013-cü ilin 11 ayında enerji istehsal edən müəssisələr nəzərə alınmadan istehlak olunan 130 milyon 832 min 896 kubmetr qazın satışından 13 milyon 89 min 104 manat vəsait əldə edilmiş, ödəmə 100 faiz olmuşdur. Əhali abunəçiləri üzrə istehlak olunan 65 milyon 450 min 772 kubmetr qazın satışından toplanan vəsait 6 milyon 552 min 645 manata çatmışdır ki, bu da 100 faiz ödəmə deməkdir.

2013-2014-cü ilin payız-qış mövsümünə hazırlıqla əlaqədar kompleks tədbirlər həyata keçirildiyini bildirən Səxavət Abbasov onu da vurğuladı ki, qaz təsərrüfatında istismarda olan magistral, daşıyıcı və paylayıcı qaz kəmərlərinə, eləcə də onların üzərindəki kranlara, siyirtmələrə və qaztənzimləyici şkaflara müntəzəm olaraq texniki baxış keçirilmiş, aşkar edilmiş nöqsanlar aradan qaldırılmışdır. İstehlakçılara verilən təbii qazın təzyiqinə hər ay texnoloji rejim tətbiq edilmiş və ölçü qovşaqlarında nəzarət işi diqqətdə saxlanılmışdır. Qaz itkisi olan istiqamətlərin müəyyən edilməsi və onları doğuran səbəblərin aradan qaldırılması üçün təxirəsalınmaz işlər görülmüşdür. Həyata keçirilən kompleks tədbirlər onu deməyə əsas verir ki, xətt təsərrüfatında baş verə biləcək hər hansı bir nasazlıq vaxtında aradan qaldırılacaq, əhali fasiləsiz və təhlükəsiz təbii qazla təmin ediləcəkdir.

**Kərəm HƏSƏNOV**

*Hamımıza məlumdur ki, müstəqilliyimizi bərpa etdikdən sonra digər inkişaf etmiş ölkələr kimi, Azərbaycan da bazar iqtisadiyyatı yolunu tutmuş və bu yolda sürətlə irəliləməkdədir. Təbii ki, bu yol göründüyü kimi hamar deyil. Azərbaycan dövləti milli iqtisadiyyatda özəl sektorun, sahibkarlığın inkişaf etdirilməsi üçün indiyədək çoxsaylı dövlət proqramları həyata keçirmiş, hərtərəfli qanunvericilik bazasının yaradılmasına nail ola bilmişdir. Bunun da nəticəsində ölkəmizdə, həmçinin muxtar respublikamızda böyük sahibkarlar ordusu yaranmış və bu sahibkarlar dövlətimizin iqtisadi dayaqlarının gücləndirilməsində mühüm rol oynamaqdadırlar.*

# Sahibkarlıq – bazar iqtisadiyyatının simvolu

Qeyd olunmalıdır ki, bir ölkənin hərtərəfli inkişafı həmin ölkənin güclü və çoxsaylı sahibkarlarının fəaliyyətindən birbaşa asılıdır. Hər bir sahədə dəqiq mexanizm işlədiyi kimi, sahibkarlığın da özünəxas dəqiq, düşünülmüş mexanizm və hədəfləri var. Bu sahəyə təsadüfən gəlib düşmək nadir hallarda effektli ola bilər. Elə bu yazıda da sahibkarlığın əsas xüsusiyyətlərinin yazılan yox, yazılmayan tərəflərindən bəhs edəcəyik. İnanırıq ki, mövzu sahibkar olmaq istəyən və ya sahibkar kimi fəaliyyətini daha da genişləndirmək istəyənlər üçün maraqlı olacaq.

Qısamüddətli sahibkarlıq fəaliyyətindən sonra iflasa uğrayan və ya özündən asılı olmayan səbəblər kimi görünən, əslində isə tamamilə özündən qaynaqlanan çatışmazlıqlar üzündən işini bərbad vəziyyətə salan sahibkarlarımız da var. Təbii ki, bu hal tək bizdə deyil, istənilən ölkədə ola bilər və mövcuddur. İnkişaf etmiş ölkələrdə sahibkarı bu və ya digər mövzuda maarifləndirəcək və ona istiqamət verəcək müxtəlif ictimai birliklər, müstəqil iqtisadçılar, tədqiqat mərkəzləri var. Etiraf edək ki, muxtar respublikamızda bu sahədə görüləcək işlər çoxdur və bu işlərin reallaşdırılması dövlətin yox, bu işdə marağı olanların vəzifəsidir. Bizim sahibkarlarımızın çoxu elə düşünür ki, hər bir sahibkarın qarşılaşdığı problemin həlli ilə dövlət özü məşğul olmalıdır. Təbii ki, dövlətin bu işdə vəzifəsi sahibkarlar üçün hərtərəfli şəraitin və qanunvericilik bazasının yaradılması, süni əngəllərin qarşısının alınması və sairdən ibarətdir. Ölkəmizdə, eləcə də muxtar respublikamızda dövlət üzərinə düşən bu işləri görüb və görməkdə davam edir. Bəs sahibkarlıqda olması vacib tərəflər və xüsusiyyətlər nədən ibarətdir?

Əvvəlcədən qeyd edim ki, mövzunu müşahidə etdiyim, araşdırdığım və müəyyən nəticələrə gəldiyim təhlillər əsasında açmağa çalışacağam.

Həyatda elə sahələr var ki, o sahədə müəyyən təhsilə malik olmadan işləmək mümkün deyil. Lakin dünyanın heç bir ölkəsində sahibkarlıqla məşğul olmaq istəyən şəxsin qarşısında ali təhsilin olubolmaması şərt kimi irəli sürülmür. Hətta ən yüksək iqtisadiyyat təhsili alan şəxsin özünün də bacarıqlı sahibkar olması yalnız ehtimallara əsaslanır. Həmçinin bu sahədə yaş məsələsi də önəmli deyil. Dünya praktikasında 12 yaşından başlayaraq 40, 50, hətta 70 yaşında belə, sahibkarlıq fəaliyyətinə başlayaraq uğur qazanan insanların olduğu məlumdur. Biznes elə bir fəaliyyət növüdür ki, bu sahəyə təhsilindən, cinsindən və cəmiyyətdə tutduğu mövqeyindən asılı olmayaraq, hər kəs maraq göstərir. Lakin çox az insan uğur qazana bilir. Buradan isə belə nəticəyə gəlmək olur ki, sahibkarlıq özündə tamam fərqli xüsusiyyətləri birləşdirir. Hansı ki bu xüsusiyyətləri bəzi sahibkarlar və ya işə yeni başlamaq istəyənlər çox zaman nəzərə almırlar. Bu tərəflərin hansılar olduğunu aydınlaşdırmazdan əvvəl sualı belə qoyaq: siz niyə yeni biznes yaratmaq istəyirsiniz? Bir çoxumuz fikirləşirik ki, sərbəst olmaq, vaxtımızın daha çox olması və pul qazanmaq üçün. Bəri başdan deyim ki, əsl sahibkarlıq fəaliyyəti ilə məşğul olan şəxsin heç zaman vaxtı olmur. Çünki sahibkar hər zaman işçilərindən çox işləmək məcburiyyətində qalır. Sərbəst də ola bilmir. Çünki sahibkar kimi sərbəst qərarlar vermək səlahiyyətləri olsa da, qurduğu işin məsuliyyəti onu heç zaman sərbəst buraxmır. O ki qaldı pul qazanmağa, doğrusunu bilmək istəsəniz, dünyanın ən böyük şirkətlərinin sahibləri belə, pulu hədəf kimi görməyiblər. Halbuki maddi vəsait olmasa, biznesdə irəliləmək mümkün deyil. Pul həmişə onlarda məqsədə çatmaq üçün vasitə rolunu oynayıb.

Deməli, biznes yaratmaq – sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq üçün əvvəlcə yaxşı düşünməli və məqsədimizi müəyyənləşdirməliyik. Buna görə də başlayacağımız işin miqyasını əvvəlcədən görməyimiz tələb olunur. Əks halda, bunun maddi və mənəvi zərbələri ilə qarşılaşmalı olacağıq. Əlbəttə, istənilən sahibkarlıq fəaliyyəti ilk olaraq maliyyə tələb edir. Bəzən çoxları fikirləşir ki, kimdənsə müəyyən miqdarda borc götürüb işimi quraram. Praktik cəhətdən bu variant özünü doğrultmur. Çünki pul götürdüyümüz şəxs – investor pul yatırdığı üçün işə qarışmalı olacaq: nəzarət funksiyasını ələ alacaq, müəyyən qərarlar verəcək, nəhayət, pulunun tez bir vaxtda geri qayıtması üçün müdaxilələr edəcək və sair. Beləliklə, yeni başladığınız işdə investorla münasibətləri tənzimləməyə diqqət edəcəksiniz, əsas iş kənarda qalacaq. Bundan əlavə, pul özünüzün olmadığına görə biznesinizə olan inam hissi də azalacaq. Halbuki biznes hədəflərin düzgün qoyulmasını sevir. Buradan isə belə nəticəyə gəlinir ki, tanış pulu ilə biznes qurmaq qəliz məsələdir. Deməli, biznesə başlamaq üçün az miqdarda da olsa, özümüzün pulu olmalıdır. Söhbət yeni işə başlamaqdan gedir, işin həcmini genişləndirməkdən yox.

Düşünək ki, müəyyən miqdarda pulumuz var, ancaq bu pul yeni işimiz üçün azdır. Belə olan halda yaradacağımız biznesi kiçik hədəflərə bölmək lazımdır. Pul bu kiçik hissə üçün az olsa belə, işə başlamaq üçün stimul yarada, eyni zamanda böyüməyə kömək edə bilər. Unudulmamalıdır ki, indiyədək heyvandarlıqla məşğul olub 5-10 litr süd satmayan şəxsin birdən-birə süd istehsalı müəssisəsi yaratmaq arzusu xəyaldan başqa bir şey deyildir. Doğrudur, bu gün həmin şəxs dövlət vəsaiti hesabına həmin müəssisəni qura bilər, lakin onun rentabelli və davamlı olaraq fəaliyyəti inandırıcı görünmür. Həmin sahibkar daim banklara borclu olacaq, istehsalını artıra bilməyəcək, işçilərin məvacibini ödəməkdə çətinlik çəkəcək və sair. Buradan isə belə nəticəyə gəlirik ki, sahibkar məşğul olacağı fəaliyyət növü ilə əlaqəli olmalı və ən əsası öz işini sevməlidir. Etiraf etmək lazımdır ki, yerli sahibkarların bir çoxunda bu tərəflər çatışmır.

Son nəticəyə varmazdan əvvəl bir məsələni də qeyd etmək istərdim. Gündən-günə bizneslə məşğul olmaq istəyənlərin sayı çoxalır. Bu, təqdirolunası haldır. Çünki insanlar getdikcə artıq sahibkarlıq ruhuna daha yaxından hiss etməyə başlayırlar. Muxtar respublikamızda nə qədər çox sahibkar olarsa, o qədər də güclü olarıq. Ancaq biznesə hazırlıq olduqca önəmlidir. Buna görə də mövzunun əvvəlində də vurğuladığımız kimi, sahibkarlıqda lazım olan zəruri tərəfləri yekunlaşdıraraq belə bir nəticəyə gələ bilərik:

*1. İstənilən işə başlayarkən, əvvəlki yazılarda da qeyd etdiyimiz kimi, pozitiv ruhda olmalı və bu əhval bizi daim təqib etməlidir. Uğur əldə edə bilməyən sahibkarlarda bu səbəb əsas rol oynayır.*

*2. Biznesə başlamaq üçün maddi vəsait şərtdir. Çalışaq, ilk vəsaiti özümüz qazanaq. Təbii ki, bu, çox zaman ehtiyacı ödəməyəcək, ancaq qarşıya qoyduğunuz hədəflərə kiçik mərhələlərlə çatmağa imkan və inam yaradacaq, həm də təcrübə qazandıracaq. Bir müddət sonra həcmi genişlətmək və digər mənbələrdən maliyyə cəlb etmək asan olacaq. Hətta deyim ki, maliyyə mənbələri özləri bizim üçün maraqlı olacaq.*

*3. Məşğul olacağımız fəaliyyət növü ilə bu və ya digər şəkildə bağlı olmağa çalışmalı, yəni sıradan bir işə başlamamalıyıq. Eyni zamanda görüləcək işin məqsəd və vəzifələrini düzgün müəyyənləşdirib hədəfə doğru birdən-birə yox, addım-addım getməliyik.*

*4. Və nəhayət, sərbəst qərarlar verməliyik. Qərarlarımızda "tələsik" və "gecikmiş" məfhumlar arasındakı ortaq nöqtəni heç zaman qaçırmamalıyıq! Bu gün erkən saydığımız qərar sabah gec ola bilər. Riskli olaq, heç zaman özümüzə olan gücü, inamı və qətiyyəti itirməyək. Bunu da yaddan çıxarmayaq ki, sahibkarlığın inkişafı dövlətimizin marağındadır. Yetər ki, hədəf bəlli, gedilən yol düşünülmüş, aydın və qətiyyətli olsun.*

***Hər birinizə bol qazanclar arzusu ilə!..***

**Səbuhi HƏSƏNOV**



Batabat



# Qışın qarşılanması – çillə

***Qış fəslinin, belə demək mümkünsə, əsas atributlarından biri qardır. Qar bərəkət, gələn ilin məhsul bolluğu deməkdir. Payız əkinlərinin qalın qarla örtülməsi onu həm şaxtadan qoruyur, həm də yazda bol su ilə təmin edir. Bunu aşağıdakı folklor nümunəsi də ifadə edir:***

*Böyük çillə, nar çillə,*
*Ağ gül üstə qar çillə.*
*Taxıllara yorğan ol,*
*Bağçalara bar, çillə.*

Qar örtüyünün faydalı olması “Qar olmasa, bar olmaz”, “Qar ili, var ili” kimi atalar sözlərində də əks olunub.

Qış fəslində gecə və gündüz zamanı havanın necə keçməsi kimi əlamətlər ilin ümumi vəziyyəti haqqında fikir söyləməyə imkan vermişdir. Xalqımızın müşahidələrinə görə, qış fəslində gecələr ayaz, gündüzlər dumanlı, buludlu keçərsə, bu, ilin yaxşı keçməyəcəyinə işarədir. Əksinə, qışda gündüzlərin ayaz, gecələrin buludlu, dumanlı keçməsi ilə isə ilin xoş keçib insanlar üçün faydalı olacağına inanılırdı.

Qış nə dərəcədə sərt keçsə də, xalqımız onun gəlişini bayram kimi qarşılayıb, onun gəlməsi ilə bağlı müxtəlif adətlər, inam və mərasimlər yaradıb. Xalqımız, maraqlıdır ki, yalnız qışın və yazın qarşılanması üçün mərasimlər təşkil edib. Başqa sözlə desək, ulularımız qışı xoş qarşıladıqları kimi, onu təntənəli şəkildə də yola salıblar. Ümumiyyətlə, xalqımız qışa yağı, düşmən, çətinlik kimi baxsa da, bu fəsil həm də əyləncə, nağıl, aşıq məclisləri, qadınların toxuculuq işləri ilə də yadda qalardı. İnsanlar bütün yorğunluğunu qış mövsümündə atar. Qış görüləcək işlərin az olması səbəbi ilə bir dinlənmə və əyləncə mövsümü hesab edilirdi.

Xalqımız qış fəslini xalq təqviminə uyğun olaraq, “çillə” adı ilə üç yerə bölüb. Bunlardan böyük çillə 40 gün (21 dekabr-30 yanvar), kiçik çillə 20 gün (31 yanvar-20 fevral), ala çillə və ya ala çolpav (boz ay da deyilir) isə bir ay (20 fevral-20 mart) davam edir.

Çillə bayramı, çillə gecəsi qış başlandığı gün qeyd edilir. Çillə gecəsi ilin 365 gecəsinin ən uzunu və qışın başlanğıc gecəsidir. Mənbələrdə qeyd edilir ki, “çillə” “çehil” sözündəndir, mənası “qırx” deməkdir. Xalq arasında “ağırlıq, dərd, kəramət, xəstəlik” mənalarında da başa düşülür.

Çillə bayramı xüsusi qeyd edilər, bu bayrama hələ bir neçə gün əvvəldən hazırlıq görülərdi. Bayram günü, demək olar ki, bütün evlərdə çillə qarpızı kəsilərdi. Hər kəs çalışardı ki, həmin gün evində çillə qarpızı olsun. Qarpız çillə gecəsinin ən gözəl payı hesab olunur. Əksər ailələr belə qarpızları əvvəlcədən alıb saxlayardılar. Etnoqrafik materiallara əsaslanaraq demək olar ki, Naxçıvanın Arazboyu kəndlərinin əksəriyyətində çox da böyük olmayan, qalınqabıqlı xüsusi qarpız növü əkilmişdir ki, belə qarpızları uzun müddət, hətta Novruza qədər saxlamaq olurmuş. Çilləyə saxlanılacaq qarpız tam yetişməmiş və saplaqlı olsa, daha yaxşı qalar. Çillə qarpızı xarab olmasın deyə, onu ot və ya samanın içərisində saxlayırdılar.

Çillə qarpızına bolluq, bərəkət rəmzi kimi baxılır. Etnoqrafik materiallara görə, çillə gecəsində qarpız kəsmək qışı xoş qarşılamaqla bərabər, ondan qorxmamağa işarədir. Digər məlumata görə, çillədə qarpız kəsəndə deyərlər ki, “ay qarpız, səni mən necə kəsirəmsə, çilləni də belə tez kəsim”. Yəni qışa, şaxtaya yenilməyim, onu dərdsiz, bəlasız başa vurum. Bəzi rayonlarda (Ordubad, Şərur) yaşlı insanların verdiyi məlumata görə, çillədə qarpız kəsilir ki, günümüz qırmızı, yəni günəşli olsun. Çillə qarpızı kəsilən vaxt xalq arasında niyyətetmə adəti də icra olunur. Bu zaman qarpızın baş tərəfini kəsərək dörd yerə ayırıb atırlar. Əgər ikisi eyni rəngdə – ağ və ya yaşıl olarsa, niyyət qəbul edilmiş hesab olunur. Bu da belə bir fikir söyləməyə əsas verir ki, çillə gecəsi qarpızın qabığının bir hissəsinin dörd yerə bölünüb niyyət tutub atılması, bəlkə də, dörd fəsillə, atılan qarpız qabıqlarının rənglərinə uyğun (ağ və yaşıl) niyyətin qəbul olması isə fəsillərin əlamətləri ilə əlaqədardır.

Bundan başqa, qarpız kəsib yeddi evə pay göndərilirdi. Çillə bayramı günü nişanlı qızların, təzə gəlinlərin bayram görüşünə (Çillə bayramına) gedərdilər. Bayramlıqlar içərisində çillə qarpızı xüsusi yer tutardı.

*Bu qarpız, çilə qarpız,*
*Düşübdür dilə qarpız.*
*Yığılıb xonçalara*
*Gedir yargilə qarpız.*

Şərur rayonunun bəzi kəndlərindən toplanmış materiallara görə, nişanlı qızlara qarpız aparanda onun yanına bıçaq da qoyarmışlar. Qarpız aparılan bıçaqla kəsilər və sonra yenidən oğlan evinə qaytarılarmış.

Ordubad bölgəsində isə həmin gün evdə un yeməkləri (xəşil, tərək, quymaq), hədik bişirilər, qovurğa qovrular, qovut çəkilərmiş.

Etnoqrafik materiallara əsaslanaraq demək olar ki, çillədə qarpız olmadıqda belə, başqa bir meyvə kəsilməlidir. Xalq arasındakı inanca görə, kim bu gecə çoxlu meyvə yesə, o, bütün qışı xəstələnməz. Ordubad bölgəsinin bəzi kəndlərində mövcud olan adətə əsasən, çillədə qarpız yoxdursa, ürəklər sərin olsun deyə, qatıq yeyərdilər. Həmin gecə süfrəyə adları “q” hərfi ilə başlayan nemətlər düzülərmiş; məsələn: qarpız, qovun, qatıq, qovurğa, qaysava, qovurma, qovut və sair.

Qeyd edək ki, qarpızın qırmızı rəngdə olması Günəşin rəmzi kimi sayıla bilər ki, bu da istiliyi çağırmaq anlamı ilə bağlıdır.

Etnoqrafik materiallara görə, xalq təqviminə uyğun olaraq, böyük çillənin birinci ongünlüyü (dekabr ayı) “qarı qatıldı küfləyə”, yanvar ayının əvvəli isə “qarıboğan” adlanır. Böyük çillənin sonlarına isə “qurdun insana yerikliyən dövrü” deyilmişdir. Bu da onunla əlaqədardır ki, ilin bu dövründə qurd (canavar) ac qaldığı üçün insanlara da hücum edir. Qışın bərk şaxtalı günlərinə həm də “qışın qulun (atın balası) salması” dövrü deyilir.

Çillə ilə bağlı adətlərdən bəhs edərkən onu da qeyd etməliyik ki, bəzən bu bayram Zərdüştlüklə əlaqələndirilir. Bu, tamamilə yanlış fikirdir. Çillə bayramı xalq təqvimi ilə bağlı keçirilən bayramlardan biridir.

Naxçıvanda qışın bəzəyi olan qarın əhali arasında bilinən adları olmuşdur. Bunlar quşbaşı, çobanyarması, kəpək, qaryeyən, püsək və sairdən ibarətdir.

*Naxçıvanda qışla bağlı təqvim adətləri tarixin ilkin dövrlərində formalaşmaqla bir sıra xüsusiyyətlərinə görə digər türk xalqları ilə ortaq cəhətlərə malikdir.*

**Asəf ORUCOV**
***AMEA Naxçıvan Bölməsinin əməkdaşı, tarix üzrə fəlsəfə doktoru***

# Naxçıvan Muxtar Respublika çempionatına start verildi

***Dünən İlham Əliyev adına Olimpiya-İdman Kompleksində daha bir turnirə start verilib. Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi ilə Naxçıvan Muxtar Respublikası Voleybol Federasiyasının birgə təşkil etdiyi və ümummilli lider Heydər Əliyevin əziz xatirəsinə həsr olunmuş voleybol üzrə kişilər arasında Naxçıvan Muxtar Respublika çempionatının açılış mərasimi olub.***

Açılışda nazirlik və federasiya rəsmiləri çıxış edərək son zamanlar muxtar respublikada voleybolun inkişafından, bu idman növünə göstərilən dövlət qayğısından bəhs ediblər.

Sonra Dövlət himni səsləndirilib.

Naxçıvan Muxtar Respublikası Voleybol Federasiyasının sədr müavini Aydın Mirzəyev bizimlə söhbətində yarışın reqlamenti barədə məlumat verdi: “Kişilər arasında voleybol üzrə Naxçıvan Muxtar Respublika çempionatı 3 gün – 20, 21 və 22 dekabr tarixlərində keçiriləcək. Bu çempionatda muxtar respublikanın rayonlarının komandaları, həmçinin Naxçıvan şəhərini təmsil edən bir komanda mübarizə aparacaq. Ümumilikdə, 8 komandanın birincilik uğrunda mübarizə aparacağı çempionat 2 yarımqrupda dairəvi sistemlə keçiriləcək. Qrup mərhələsini ilk iki pillədə başa vuran komandalar yarımfinala yüksələcəklər. Final, eyni zamanda üçüncülük uğrunda oyunlar dekabrın 22-də keçiriləcək. Qaliblər nazirlik tərəfindən diplomlarla, federasiya tərəfindən isə qiymətli hədiyyələrlə mükafatlandırılacaqlar”.

Sədr müavini həmçinin son zamanlar federasiyanın gördüyü işlər barədə də danışdı: “Son zamanlar biz belə yarışların daha tez-tez təşkil olunmasına önəm veririk. Belə turnirlər, çempionatlar Naxçıvan Muxtar Respublikasında voleybolun inkişafına böyük təkan verir, yeni istedadlı gənclərin üzə çıxarılmasında mühüm rol oynayır”.

Qeyd edək ki, dairəvi sistem üzrə keçirilən çempionatda qrup mərhələsinin liderləri digər qrupda ikinci pilləni tutmuş komandalarla qarşılaşacaq və yalnız bundan sonra finalçıların adlarına aydınlıq gələcək.

✍ **Ceyhun MƏMMƏDOV**

# Hüquqi maarifləndirmə günün tələbidir

***Sual:* *Tikintisi başa çatdırılmamış daşınmaz əmlak üzərində hüquqların dövlət qeydiyyatı aparıla bilərmi?***

***Cavab:*** “Daşınmaz əmlakın dövlət reyestri haqqında” Azərbaycan Respublikası Qanununun 17-ci maddəsinə əsasən, tikintisi başa çatdırılmamış daşınmaz əmlak üzərində, həmçinin mülki qanunvericilikdə nəzərdə tutulmuş digər hallarda mülkiyyət və digər əşya hüquqları dövlət reyestrində tikintiyə icazə sənədləri və plan-cizgi əsasında qabaqcadan qeydiyyata alına bilər. Tikintisi başa çatdırılmamış binanın tərkib hissəsi olacaq ayrı-ayrı mənzillərə və ya qeyri-yaşayış sahələrinə mülkiyyət hüququ və eyni zamanda onun ipoteka ilə yüklülüyü dövlət reyestrində qabaqcadan qeydiyyata alına bilər.

Hüququn əldə edilməsinə yönəldilmiş tələbin üstünlüyü qabaqcadan qeydiyyat üçün tələb olunan barəsində ərizənin reyestrə təqdim edilməsi vaxtı ilə müəyyən edilir.

***Sual:* *İşçilərin sayı və ya ştatları ixtisar edildiyinə görə əmək müqaviləsinə xitam verilərkən işçilərə əməkhaqqı ödənilirmi?***

***Cavab:*** Azərbaycan Respublikası Əmək Məcəlləsinin 77-ci maddəsinə əsasən, işçilərin sayı azaldıqda və ya ştatları ixtisar olunduqda Əmək Məcəlləsinin 70-ci maddəsinin “b” bəndi ilə, yəni işçilərin sayı və ya ştatları ixtisar edildikdə işəgötürən əmək müqaviləsini ləğv etməzdən azı iki ay əvvəl işçini rəsmi xəbərdar etməlidir. Xəbərdarlıq müddəti ərzində hər iş həftəsində əməkhaqqı saxlanılmaqla iş axtarmağa imkan yaradılması məqsədi ilə işçi azı bir iş günü əmək funksiyasının icrasından azad edilir. Əmək müqaviləsi işçilərin sayı və ya ştatları ixtisar edildiyinə görə ləğv edilərkən işçilərə orta əməkhaqqından az olmamaqla işdənçıxarma müavinəti, işdən çıxarıldığı gündən yeni işə düzələn günədək ikinci və üçüncü aylar üçün orta əməkhaqqı ödənilir. Nəzərdə tutulan orta əməkhaqqı isə müvafiq məşğulluq orqanı tərəfindən işçiyə verilən arayışlar əsasında ödənilir. Həmin arayış isə işdən çıxan gündən bir ay müddətində məşğulluq orqanında qeydiyyata alınan şəxslərə verilir.

***Naxçıvan Muxtar Respublikası Prokurorluğunun Hüquqi təminat və informasiya şöbəsi***

## Allah rəhmət eləsin

Naxçıvan Tibb Kollecinin direktoru İlhamə Mustafayeva və kollecin kollektivi Naxçıvan Muxtar Respublikası Doğum Mərkəzinin baş həkimi Kəmalə Qurbanovaya, anası
**ZƏRİFƏ XANIMIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Naxçıvan Muxtar Respublikası Göz Xəstəxanasının baş həkimi Səidə Hüseynova və xəstəxananın kollektivi Kəmalə Qurbanovaya, anası
**ZƏRİFƏ XANIMIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Naxçıvan Şəhər Körpələr Evi və Ailələrə Dəstək Mərkəzinin baş həkimi Rəsmiyyə Xasayeva və mərkəzin kollektivi Kəmalə Qurbanovaya, anası
**ZƏRİFƏ XANIMIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Naxçıvan Muxtar Respublikası Doğum Mərkəzinin həkim-rezidentləri Xəyalə Hüseynova və İlkay Həşimli mərkəzin baş həkimi Kəmalə Qurbanovaya, anası
**ZƏRİFƏ XANIMIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Naxçıvan Şəhər Gigiyena və Epidemiologiya Mərkəzinin direktoru Oruc Əliyev və mərkəzin kollektivi Kəmalə Qurbanovaya, anası
**ZƏRİFƏ XANIMIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Naxçıvan Muxtar Respublikası Doğum Mərkəzinin həkimlərindən Məryəm Səlimli, Gültəkin Əliyeva, Rəfayə Babayeva, Mahirə Orucova və Gülnarə Abbasova mərkəzin baş həkimi Kəmalə Qurbanovaya, anası
**ZƏRİFƏ XANIMIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Naxçıvan Muxtar Respublikası Doğum Mərkəzinin həkimlərindən Almaz Qəhrəmanova, Sədaqət Yusifova, Aysel Heydərova və Namiq Rəsulov mərkəzin baş həkimi Kəmalə Qurbanovaya, anası
**ZƏRİFƏ XANIMIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Naxçıvan Muxtar Respublikası Doğum Mərkəzinin həkimlərindən Mətanət Məmmədova, Fatma Kəngərli, Sədaqət Məmmədova, Durna Cabbarova və Mirəstə Hüseynova Kəmalə Qurbanovaya, anası
**ZƏRİFƏ XANIMIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Naxçıvan Muxtar Respublikası Doğum Mərkəzinin həkimlərindən Siddiqə İsmayılova, Elnurə Bağırova, Ləman Kərimova və Olqa Məmmədova Kəmalə Qurbanovaya, anası
**ZƏRİFƏ XANIMIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Naxçıvan Muxtar Respublikası Doğum Mərkəzinin həkimlərindən Kəmalə Məmmədova, Südabə Aslanova, Zəkiyyə Salmanova, Leyla Məmmədxanova və Zəminə Şirinova Kəmalə Qurbanovaya, anası
**ZƏRİFƏ XANIMIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


ŞƏRQ qapısı
Baş redaktor: TURAL SƏFƏROV

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi, 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Səbuhi Həsənov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və “Əcəmi” NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 3940. Sifariş № 1147